UOT: 616-053.2

Yenidoğulanlarda aşkar olunan xəstəliklərin rastgəlmə tezliyinin və xəstələnmə strukturunun müqayisəli təhlili (2023-2024-cü illər)

A.Ə. Poluxova, M.Z. Əfəndiyeva, S.R. Nəsirova, S.A.Mehdiyeva
K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Bakı

Müəllifin elektron poçt ünvanı: sevincnesirova40@gmail.com

Açar sözlər: yenidoğulan, xəstəliklər, xəstələnmə strukturu
Ключевые слова: новорожденный, заболевания, структура заболеваемости
Key words: newborn, diseases, morbidity structure

Siyasi, sosial-iqtisadi vəziyyətdən asılı olmayaraq ana və uşaqların sağlamlığınını mühafizəsi təbabətin birinci dərəcəli problemi olmaqda davam edir. Körpə ölümü və uşaq əlilliyi uşaq sağlamlığınını inteqral göstəriciləri olmaqla bərabər həm əhalinin yaşayış səviyyəsini, onun maddi rifahını, həm də ana və uşaqların sağlamlığının qorunması sahəsində Səhiyyənin fəaliyyətinin keyfiyyətini özündə əks etdirir [1,2,3].

Yenidoğulma dövrü insan ontogenezində ən mürəkkəb və kritik dövrüdür. Bu dövrdə bir sıra üzv və sistemlərin funksiyalarının yenidən qurulması körpə orqanizmini bətnxarici amillərə qarşı həssas edir və nəticədə adaptasiya prosesləri pozulur, həyat üçün təhlükəli vəziyyətlərin, sonrakı günlərdə isə bir sıra somatik infeksion patologiyaların, nevroloji pozulmaların formalaşmasına səbəb olur [4,5].

Son məlumatlara görə hər il dünyada 5 yaşa qədər uşaqlar arasında 12 mln. ölüm qeydə alınır [6]. Ölüm hadisələrinin 47% neonatal dövrdə baş verir ki, onun da 75% həyatın 1-ci həftəsinin payına düşür [7].

ÜST-nin məlumatlarında əsasən 2000-ci ildən başlayaraq dinamikada neonatal ölüm 44% azalmışdır. Lakin, letallıq yenidoğulma dövründə yenə də yüksəkdir. Belə ki, hər gün təqribən 6500 nəfər yenidoğulan ölur və 2022-ci ildə 2,3 mln yenidoğulan uşaqda letallıq qeyd olmuşdur. Ötən illərdə olduğu kimi 2022-ci ildə də neonatal ölümün səbəbləri əksər hallarda vaxtından qabaq doğuş, doğuş asfiksiyası, doğuş travmaları, neonatal infeksiyalar və anadangəlmə inkişaf qüsurlarıdır [8,9].

Rusiya Federasiyasının 2024-cü ildə təqdim etdiyi statistik informasiyada 2023-cü il ilə müqayisədə ümimi ölüm 6,1%, uşaq ölümü isə 14,5% azalmışdır [10].

Beləliklə, keyfiyyətli tibbi xidmətin əlçatanlığı və möcvudluğu hələ də bütün dünyada ana və yenidoğulan körpələrin həyatda qalma və ölüm məsələsi olaraq qalır.

Rusiya Federasiyasında aparılan araşdırmalar 2017-2021-ci illərdə yenidoğulan körpələrdə rast olunan xəstəliklərin tezliyinin dinamika 1,5% azalmasını müəyyən etmişdir. Xəstələnmə strukturunda isə perinatal hipoksiya, doğuş travmaları (kefalohematoma, körpücük sümüyünün sınıqları) və anadangəlmə inkişaf qüsurları üstünülük təşkil etmişdir [11].

2024-cü ildə Daşkənd Pediatriya Tibb Unievrsitetinin apardığı tədqiqatlarda yenidoğulan körpələrin xəstələnmə strukturunda perinatal patologiyalar (asfiksiya, ağciyərlərin atelektazı, perinatal ensefalopatiya, doğuç traxmalar) və anadangəlmə inkişaf qüsurları aparıcı mövqe tutmuşdur [6].

Ümumdünya Səhiyyə Təşkilatının 2024-cü il statistik məlumatlarına görə vaxtındadoğulan körpələrin ölüm və əlilliyinin səbəbi ötən illərdə olduğu kimi perinatal hipoksiya, intranatal asfiksiyadır. Erkən neonatal dövrdə bu qrup körpələrin 60-80% poliorqan disfunksiyaları inkişaf edir. Körpələrin sonrakı inkişaf dövrlərində serebral iflic, psixomator, nitq pozulmaları və intelektin ləngiməsi xarakterikdir [13].

Beləliklə, yuxarıda qeyd olunanlar bir daha göstərir ki, neonatal xidmətin aparıcı istiqamətlərindən biri yenidoğulan körpələrdə xəstəliklərin monitorinqi və dinamikada xəstələnmə strukturunun müqayisəli təhlilidir. Bu zaman əldə olunan məlumatlar neonatal xidmətin əsas göstəriciləri hesab edilir.

Tədqiqatın material və metodları. Şöbəyə Bakı, Sumqayıt Gəncə kimi şəhərlərin, rayonların doğum evlərindən, xəstəxanaların doğum şöbələrindən, Perinatal Mərkəzlərdən Tibb Mərkəzlərindən, uşaq poliklinikaları və həmçinin ETPİ-nun göndərişi ilə daxil olmuşalr. 2023-2024-cü ildə şöbədən keçən xəstələrin 1846 (88,8%) nəfəri göndərişsiz (ötən il 11/2 nəfər (75,9%)) daxil olmuşdur. Doğum evlərindən şöbəyə köçürülən körpələrin sayında 2,5 dəfə azalma qeyd edilir (3,3%). Belə ki, 2023-cü ildə bu göstərici 8,5% təşkil

etmişdir. 2024-cü ildə şöbəyə təcili tibbi yardım maşını ilə 150 (7,2%) nəfər (2023-cü ildə 182 (11,8%)) daxil olmuşdur.

Şöbədən keçən yenidoğulan körpələr bir qayda olaraq nevroloq, oftalmoloq, zərurət olduqda isə otolarinqoloq, cərrah, neyrocərrah, kardioloq, hematoloq, dermatoloq tərəfindən müayinə olunmuşlar. Klinik, paraklinik, biokimyəvi, seroloji, funksional-diaqnostik müayinələr (neyrosonoqrafiya, exokardioqrafiya, dopleroqrafiya, daxili üzvlərin ultrasəs müayinəsi, rentgen müayinəsi, KT, MRT, EEQ və s.) aparılmışdır. Diaqnozların qoyulmasında xəstəliklərin 10-cu Beynəlxalq Təsnifatından istifadə edilmişdir.

İl ərzində şöbə müntəzəm olaraq zəruri dərman vasitələri ilə (antibiotiklər, venadaxili immunoqlobulinlər, infuziya məhlulları ilə) təmin olunmuş, analara gündə 3 dəfə zəngin menyuya uyğun yeməklər verilmiş və terapevt tərəfindən konsultasiya olunmuşlar.

Yenidoğulan uşaqların patologiyası şöbəsi 40 çarpayılıqdır. 3 palata boks tipli olub 3 çarpayılıqdır, qalan 7 palata 4 çarpayılıqdır.

Şöbədə intensiv terapiya palatası, kiçik manipulyasiya otağı fəaliyyət göstərir. İntensiv terapiya palatası bir sıra müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur:

- açıq tipli reanimasiya qurğusu
- vakuum aspiratoru
- resilkulyator
- perfuziya pompası
- perfuzpmatlar
- monitorlarlar
- fototerapiya cihazı
- kardiomonitorlar

Göründüyü kimi şöbədə neonatal dövrün müxtəlif patologiyaların erkən diaqnostikası, körpələrin hərtərəfli müayinəsi və müalicəsi üçün şərait yaradılmışdır.

Tədqiqatın nəticələri və müzakirəsi. 2023-cü ildə şöbəyə 2100 nəfər yenidoğulan, 2024-cü ildə isə 2079 nəfər daxil olmuşdur. Təhlil zamanı məlum oldu ki, 2024-cü ildə instituta qəbul olunan xəstələrin 25,9% (2079 uşaq) şöbəyə qəbul olunub, ümumi qəbul olunan xəstələrin sayı ilə müqayisədə keçən illə nisbətən bu göstəricidə 17% artım qeyd olunur (2023-cü ildə 24,4% -2100 uşaq).

2024-cü ildə şöbəyə daxil olan 2079körpənin 1466 nəfəri (70,5%) qəbul şöbəsindən, 611 nəfər (29,3%) isə YRİTŞ-dən, 2 nəfər (0,1%) erkən yaşlı uşaqların cərrahiyyəsi şöbəsindən köçürülmüşdür (2023-cü ildə müvafiq olaraq bu göstəricilər 73,4 % , 26,4 % və 0,24 % təşkil etmişdir).

2024-cü ildə şöbədən digər tibb müəssisələrinə 7 xəstə köçürülüb: 1 uşaq 1 saylı körpələr evinə, 1 uşaq 2 saylı körpələr evinə, 5 uşaq 1 saylı uşaq infeksion xəstəxanasına (2 uşaq qızılca, 3 uşaq göy öskürək diaqnozu ilə). İnstitutun digər şöbələrinə 58 xəstə köçürülüb: onlardan 2 xəstə profilə müvafiq Hipertrofik pilorostenoz və Hişprunq diaqnozu ilə institutun uşaq cərrahiyyəsi şöbəsinə (2023-cü ildə 8 uşaq (0,3%)), 51 (2,6%) yenidoğulan isə ümumi vəziyyətinin ağırlığı ilə bağlı institutun YRİT şöbəsinə köçürülüb (2023-cü ildə 67 uşaq (3,1%) xəstə köçürülüb), 1,1 dəfə azalma qeyd olunur.

2024-cü ildə şöbədən keçən 2079 xəstədən 2024 xəstə (97,3 %) evə yazılıb. Onların 99,2% (1869) sağalma və yaxşılaşma, 0,8 %-i (16 xəstə) isə evə iltizamnamə ilə yazılıb. 2023-cü ilə bu göstərici 95,3% olmuşdur.

Körpələrin yaş tərkibinə baxdıqda hər 2 ildə uşaqlar əsasən neonatal dövrdə daxil olmuşdur (müvafiq olaraq 2023-cü ildə 77,5%, 2024-cü ildə 80,5% körpə).

2024-cü ildə şöbədən 5 (0,2%) ekiz keçmişdir, 2023-cü ildə bu göstərici 9 nəfər (0,38%) olmuşdur.

Körpələrin 67,3%-i (139 nəfər) oğlan, 32,8%-i isə (682 nəfər) qızdır, 2023-cü ildə bu göstəricilər müvafiq olaraq 63,8% və 36,1% təşkil etmişdir.

Beləliklə, 2024-cü il üçün qız uşaqlarınını sayında 4% atım olmuşdur.

Şöbədə müalicə alan körpələrin qidalanmasına, nutritiv dəstəyə xüsusi diqqət verilmişdir. Şöbədən 2023-2024-cü illərdə keçən yenidoğulanların qidalanmasında cədvəldən göründüyü kimi ana südü ilə qidalanların sayı üstünlük təşkil etmişdir (80,2%-76,1%).

Buna səbəb analar arasında ana südünün üstünlüyünün, onun əhəmiyyətinin kifayət qədər təbliğatınını aparılmasıdır. Ana südünün çatışmazlığı hallarında yenidoğulanalrın ümumi vəziyyətinə mövcud xəstəliyin gedişinə, körpələrin bədən kütləsinə müvafiq müalicəvi qida qatışıqları təyin edilmişdir.

2023-2024-cü illərdə yenidoğulanların xəstələnmə strukturunda əsas mövqe tənəffüs yolarının xəstəliklərinə məxsusdur.

Cədvəl 1
2023-2024-ci illər ərzində yenidoğulan uşaqların qidalanmasının xarakteristikası

İllər	*Təbii*	*Qarışıq*	*Süni*
2023-cü il	1684 (80,2 %)	308 (14,7 %)	107 (5,1%)
2024-cü il	1478 (76,1%)	343 (17,7%)	120 (6,2%)

Cədvəl 2
Tənəffüs yollarının xəstəlikləri (%)

	Patologiyalar	2023-cü il	2024-cü il
J00-J06.	Yuxarı tənəffüs yollarının kəskin respirator infeksiyaları	606 (28,9%)	804 (38,6%)
J10-J18.	Pnevmoniya	106 (5,1%)	257 (12,2%)
	Anadangəlmə pnevmoniya	35 (1,7%)	44 (2,1%)
	Yenidoğulmuşun tənəffüs çatmamazlığı	78 (8,7%)	152 (7,3%)
	Pnevmatoraks	17 (0,8%)	5 (0,3%)
	Cəmi	45,2	48,9

Cədvəldən göründüyü kimi 2024-cü ildə yuxarı tənəffüs yollarının kəskin respirator infeksiyaları 38,6% (804 nəfər), 2023-ci ildə 606 nəfər (28,9%) təşkil etmişdir. 1,3 dəfə artma qeyd olunur. Pnevmoniya diaqnozu ilə müalicə olunan xəstələrin sayı 257 nəfər (12,3%), ötən il 5,1%-106 olmuşdur.

Anadangəlmə pnevmoniya 2023-cü ildə 1,7%, 2024-cü ildə isə 2,1% təşkil etmişdir. Ümumi hesabda pnevmoniya diaqnozu ilə bu il şöbədən keçən körpələrin sayında da artım (2,4 dəfə) müəyyən edilir. Pnevmoniya diaqnozu bütün təsadüflərdə rentgen müayinəsi ilə təsdiq olunmuşdur.

Yenidoğulanlarda tənəffüs yollarının xəstəlikləri, xüsusilə yuxarı tənəffüs yollarınını kəskin respirator infeksiyaların dinamikada tezliyinin artımı, virusların verifikasiyası üzrə müayinələrin aparılmasını, virus ilə yoluxmanın qarşısını ala biləcək kompleks profilaktika tədbirlərin gücləndirilməsini, həmçinin analar arasında maarifləndirmə işlərinin, sanitar-gigiyenik qaydalarına riayət etməyin vacibliyini tələb edir.

Xəstələnmə strukturunda II yeri sarılıqlar tutur.

Cədvəl 3
Yenidoğulanlarda sarılıqlar (%)

№	Patologiya	2023-cü il	2024-cü il
1	Neonatal sarılıq	510 (24,3%)	470 (24,1%)
2	Yenidoğulanların hemolitik xəstəliyi	131 (6,1%)	113 (5,8%)
	Dölün və yenidoğulmuşun Rh faktor üzrə izoimmunizasiyası	27	22
	Dölün və yenidoğulmuşun ABO üzrə izoimmunizasiyası	94	87
	Döl və yenidoğulmuşun ABO və Rh faktor üzrə izoimmunizasiyası	103	4
3	İrsi enzimopatiya (Q-6-FDG defisiti)	5 (0,2%)	34 (1,7%)
4	İnfeksiya ilə əlaqədar sarılıq	19 (0,9%)	2 (1 %)
5	Biliar atreziya	1 (0,05%)	1 (0,05%)
	Cəmi	36,6%	30,5%

Müqayisəli təhlil göstərdi ki, 2023-2024-cü illə ərzində sarılıqların rastgəlmə tezliyi dəyişməz qalmışdır ki, (2023-cü ildə 30,6%, 2024-cü ildə 30,5%) bunu da müsbət hal kimi qiymətləndirmək olar.

Yalnız irsi enzimopatiyalar tezliyində (Q-6-FDQ defisiti) dinamikada 5 dəfə artım (müvafiq olaraq 2023-cü ildə 7 nəfər -0,31%, 2024-cü ildə 34 nəfər -1,7%) müəyyən edilmişdir. Belə vəziyyət çox ehtimal ki, diaqnostikanın yaxşılaşması ilə əlaqədardır. Bu qrup yenidoğulanların müayinə və müalicəsindən sonra analara müvafiq məsləhətlər verilmiş və körpələr hematoloqun nəzarəti altında evə yazılmışlar. Xəstələnmə strukturunda sonrakı yer infeksion patologiyalara məxsusdur (Cədvəl 4).

Cədvəl 4
2023-2024-cü illərdə aşkar edilən infeksiona patologiyalar (%)

Sepsis	25 (1,2%)	55 (2,6%)
İrinli artrit		4 (0,2%)
Osteomielit		4 (0,2%)
Omfalit	1 (0,05%)	14 (0,7%)
Piodermiya	20 (0,9%)	26 (1,2%)
İrinli otit	3 (0,1%)	3 (0,2%)
İrinli konyuktivit	9 (0,4%)	11 (0,5%)
Sidik yollarının infeksiyası	22 (1,0%)	30 (1,4%)
Enterokolit	47 (2,2%)	89 (4,2%%)
Nekrotik enterokolit	1 (0,05%)	7 (0,3%%)
Cəmi	13,2%	18,4%

Müqayisəli təhlil infeksion patologiyalardan-sepsisin rastgəlmə tezliyində 2 dəfə artım müəyyən etdi.

Belə ki, 2024-cü ildə sepsis diaqnozu 55 (2,6%) xəstədə, 2023-cü ildə isə 25 nəfərdə (1,2%) qeydə alınmışdır. Sepsisin etioloji strukturunda (80%) qrammənfi flora üstünlük təşkil etmişdir.

Anoloji dinamika yerli irinli-iltihabi xəstəliklərdə də müşahidə edilmişdir: 2024-cü ildə 92 yenidoğulanda, 2023-cü ildə 55 körpədə.

Yuxarıda qeyd olunanlarla yanaşı 2023-2024-cü illərdə 47 (2,2%) nəfər 89 (4,2%) nəfər yenidoğulanda enterokolit müəyyən edilmişdir. 2023-cü il ilə müqayisədə 2024-cü idlə NEK 0,25% artım qeyd olunur.

Perinatal dövr üçün spesifik olan infeksiya 136 yenidoğulanda (6,5%) aşkar edilmişdir. Ötən il bu rəqəm 8,1% 17 xəstə təşkil etmişdir (1,2 dəfə azalma qeyd olunur).

Bütövlükdə, yenidoğulan körpədə hələ də infeksion patologiyaların yüksək səviyyədə davam etməsi yeniyetmə qızlar-gələcək anaların sağlamlığınını mühafizəsi aspektində maarifləndirmə tədbirlərinin, reproduktiv yaş dövründə olan və hamilə qadınlar arasında infeksiyaların vaxtında aşkar edilməsinin, xroniki infeksiya ocaqlarınını sanasiyasının, doğumayardım müəssisələrində, neonatal şöbələrdə antiseptik, epidemioloji tədbirlərin aparılmasının vacibliyi tələb edir. Yenidoğulanların xəstələnmə strukturunda hipoksik-işemik ensefalopatiyalar da xüsusi yer tutur (Cədvəl 5).

Cədvəl 5
Yenidoğulanda hipoksik-işemik ensefalopatiyalar (%)

Patologiya	2023-cü il	2024-cü il
Yenidoğulmuşun hipoksik işemik ensefalopatiyası	45 (2,1%)	143 (7,3%)
Baş beynə mədəcikdaxili qansızmalar I dərəcə II dərəcə III dərəcə		16 (0,8%) 13 (0,7%) 1 (0,05%) 2 (0,1%)

Cədvəldən göründüyü kimi ötən il ilə müqayisədə yenidoğulanlarda hipoksik-işemik ensefalopatiya tezliyində 2,5% qeyd olunur. Doğuş travması 2024-cü ildə 9 körpədə (0,5%) müəyyən edilmişdir (Cədvəl 5).

Cədvəl 6
Körpələr arasında aşkar edilən doğuş travmaları (%)

Kefalohematoma	*4 (0,2%)*
Pleksit	*2 (0,1%)*
Körpücük sümüyün sınığı	*3 (0,2%)*

Yuxarıda qeyd olunan vəziyyət perinatal xidmətin və doğuş zamanı ixtisaslaşmış tibbi yardımın səviyyəsinin artırılmasının vacibliyini vurğulayır.

Yanaşı xəstəliklərin strukturunda ötən ildə olduğu kimi cari ildə də anemiya aparıcı mövqe tutur (müvafiq olaraq 9,6%, 8,6%) sonrakı yerlərdə zülal-enerji çatışmazlığı 1,7% (37 nəfər) və qastroezofageal reflüks xəstəliyi 1,2%-1,0% (müvafiq olaraq 27 nəfərdə və 23 nəfər) diqqəti cəlb edir.

Cədvəl 7
2023-2024-cü illərdə yenidoğulanlarda aşkar olunan yanaşı xəstəliklər (%)

№	Patologiyalar	2023-cü il	2024-cü il
1	Anemiya	203 (9,6%)	171 (8,8%)
2	Yenidoğulanların hemorragik xəstəliyi	8 (0,35%)	11 (0,6%)
3	Atopik dermatit		8 (0,4%)
5	Anadangəlmə ixtioz		2 (0,1%)
7	Hipotrofiya I-III dərəcə	9 (0,4%)	32 (1,6%)
8	Diabetik fetopatiya		2 (0,1%)
9	Qastroezofageal refluks xəstliyi	27 (1,0%)	21 (1,0%)
10	Stoma daşıyıcı	1 (0,06%)	4 (0,2%)
11	Hipotireoz		3 (0,2%)
12	Kistik-fibroz		1 (0,05%)
13	Bullyoz epidermoliz		1 (0,05%)

2023-cü ildə şöbədən keçən 2100 nəfər yenidoğulan körpənin 111 nəfərində (5,2%), 2024-cü ildə 2079 uşağın 299 nəfərində (14,3%) bu və ya digər anadangəlmə inkişaf qüsurları aşkar edilmişdir. Beləki, 2024-cü ildə AİQ tezliyində 9,1% artım qeyd olunur.

2023-cü ildə aşkar edilən anadangəlmə inkişaf qüsurları:

Pyer-Robin sindromu-1 nəfərdə, yumşaq damağın bitişməsi 6 körpədə, dodaq və damaq bitişməməsi -5 nəfərdə, sidik sisteminin anadangəlmə inkişaf qüsuru-8 körpədə, Daun sindromu-5 körpədə, Anus atreziyası-1 körpədə, Xuanaların atreziyası-1 körpədə, hidronefroz-3, pilorestenoz-3 nəfərdə aşkarlanmışdır.

2024-cü ildə müəyyən edilən inkişaf qüsurları:

Dodağın və damağın yarığı
Pyer-Robin sindromu-6 xəstə
Bağırsağın digər inkişaf qusurları
Hirşprunq xəstıliyi-1
Sidik sisteminin anadangəlmə anomaliyaları (inkişaf qusuru)
Böyrəyin polikistozu-2,
Xromosom anomaliyaları
Daun sindromu -4
Əyripəncəlik-1

Kartogener sindromu. Anadangəlmə inkişaf qüsurları irsi mübadilə pozulmaları, xromosom anomaliyalı xəstələr bir qayda olaraq kompleks şəkildə müayinə edilmiş, nevroloq və genetik tərəfindən konsultasiya olunmuşlar və 100% təsadüflərdə stabil vəziyyətdə evə yazılmışdır. Müqayisəli təhlil göstərir ki, anadangəlmə inkişaf anomaliyaları arasında anadangəlmə ürək qüsurları əsas mövqe tutur.

Belə ki, ürək kameralarının və arasıkəsmələrin anadangəlmə qüsurları (AÜQ) 2023-cü ildə 78 nəfərdə (3,7%), 2024-cü ildə isə 184 uşaqda (8,8%) aşkar edilmişdir. AÜQ tezliyində 5,1% artım müəyyən edilmişdir.

Ürək kameralarının və arakəsmələrinin anadangəlmə anomaliyaları: 81 xəstədə qulaqcıqlararası çəpərin defekti; 23 xəstədə mədəciklərarası çəpərin defekti; 41 xəstədə açıq arterial axarı, 36 xəstədə isə açıq oval dəlik, 3 xəstədə pulmonar hipertenziya aşkar edilmişdir.

Bu qrup yenidoğulanlar kardioloq tərəfdən konsultasiya olunmuşlar, xəstələrə konservativ müalicə təyin edilmişdir. Yenidoğulanlar stabil vəziyyətdə kardioloqun nəzarətinə evə yazılmışdır.

Beləliklə, 2023-2024-cü illərdə yenidoğulan körpələrdə anadangəlmə inkişaf qüsurlarının, o cümlədən AÜQ tezliyində fərqli artım bütövlükdə Respublika perinatal skrininqin daha uğurla inkişaf etdirmək, molekulyar-genetik müayinələrin daha geniş spektrdə tətbiqinə nail olunmasını zəruri edir.

Beləliklə, vaxtında doğulan yenidoğulanların patologiyası şöbəsində 2023-2024-cü illərdə müalicə alan körpələrin retrospektiv olaraq xəstəliklərin müqayisəli təhlili göstərdi ki, xəstələnmə strukturunda tənəffüs yolu xəstəlikləri, sarılıqlar və infeksion patologiyalar aparıcı mövqe tutur.

İxtisaslı kadrlar, neonatal şöbələrin müasir tibbi avadanlıqlarla təchizatı, diaqnostik, patogenetik, müalicə-reanimasiya imkanlarının yüksək səviyyəsi, düzgün təşkil olunan nutritiv-dəstək yenidoğulan körpələrdə ölüm riskinin azalmasına, letallığın qarşısının alınmasına, xəstəliklərin proqnozunun əhəmiyyətli dərəcədə yaxşılaşmasında imkan vermiş olacaqdır.

Beləliklə, yenidoğulan körpələrin dinamikada xəstələnmə strukturunun öyrənilməsi zamanı əldə edilən nəticələr gələcəkdə uşaqların sağlamlıq vəziyyətinin qiymətləndirilməsində Müalicə-Sağlamlıq və Reabilitasiya Mərkəzlərinin fəaliyyətlərinin, həmçinin fundamental elmi tədqiqatların periotetlərinin müəyyən edilməsində həlledici rol oynayacaqdır.

ƏDƏBİYYAT

1. Tağıyev N.Ə. Neonatologiya. Dərslik. Bakı, 2007,
2. Маисеева К.Е. Некоторые результаты оценки динамики заболеваемости новорожденных в организациях родовспоможения. Журнал медицина и организация здравоохранения, 2019, №3.
3. Антонова А.А., Яманова Г.А., Боговденова В.Ф., Кеиль Т.Е. Структура заболеваемости детей первого года жизни. Международный научно-исследовательский журнал, 2020, 12-2 (102): 104-107.
4. Иванов Д.О., Сафранова А.Н., Павлова С.Е. и др. Ранние доношенные: пути снижения заболеваемости и смертности доношенных детей. Вопросы гинекологии, акушерства и перинатологии 2023, т.22, №2, с.74-85.
5. Denisova İ.V., Aleksandro Z.S. et al. Perinatal mortality of inspecified etiology: problems and solutions. Vopr. Ginekol.akus.Perinatology, 2022, T.21, №2, 99-115.
6. Исаев И.С., Алиева Н.Р. Особенности структуры заболеваемости и смертности детей первого года жизни. International Scientific Journal Science and İnnovation special issue: Actual problems of pharmacology and pediatric İSSN 2181-3337/ www.scientists.uz/june 2024
7. https://www.euro.who.int/ru Европейский портал информации здравоохранения. Повышение показателей выживаемости и благополучного развития новорожденных, 2022.
8. Агарков Н.М., Чурносов М.И., Осипова О.А. и др. влияние антропогенных поллютантов атмосферы на распространённость врожденных пороков развития среди новорожденных. Российский вестник перинатологии и педиатрии. 2020, 65 (6), с. 34-41.
9. Европейский портал информации здравоохранения. Мертворождаемость, на 1000 родов. 2022. https:www.euro.who.int/ru
10. Сайт Росстата в разделе статистика / Население / Делиография. Москва, 2024
11. Эфендиева С.К., Татарчук Е.А., Яманова Г.А., Антонова А.А. Структура и динамика заболеваемости новорожденных детей в кизлярском районе // МНИЖ. 2021. №10-2 (112).
12. Чистякова Г.Н., Ренетзова И.И., Кадочникова П.А и др. Факторы риска и структура заболеваемости недоношенных новорожденных с летальными исходам // Журнал Мать и Дитя, 2024, №2, с.79-87

Резюме

Сравнительная характеристика частота и структуры заболеваемости у новорожденных детей (2023-2024 годы)

А.А. Полухова, М.З. Эфендиева, С.Р. Насирова, С.А.Мехтиева

Цель исследования – провести сравнительный анализ заболеваний новорожденных в 2023-2024 гг. и определить структуры заболеваемость в динамике. В течение 2023-2024 года с отделение патологии новорожденных детей поступило 4179 детей. Сравнительный анализ показал, что в структуре заболеваемости ведущее место занимают заболеваний дыхательных путей (42%), желтуха (30,5%) и инфекционные патологии (15,2%). Ранняя диагностика, адекватное лечение и правильно организованная нутритивная поддержка могут снизить смертность новорожденных.

Summary
Comparative characteristics of the frequency and structure of morbidity in newborn children (2023-2024)
A.A. Polukhova, M.Z. Efendiyeva, S.R. Nasirova, S.A. Mehtiyeva

The aim of the study is to conduct a comparative analysis of newborn diseases in 2023-2024 and determine the morbidity structure in dynamics. During 2023-2024, 4179 children were admitted to the neonatal pathology department. Comparative analysis showed that respiratory diseases (42%), jaundice (30.5%) and infectious pathologies (15.2%) occupy the leading place in the morbidity structure. Early diagnosis, adequate treatment and properly organized nutritional support can reduce neonatal mortality.

Daxil olub: 29.05.2025